**Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi**

**Mingəçevir Turizm Kolleci**

**Publik Hüquqi Şəxsi**

# Psixoloji xidmətin göstərilməsi haqqında Qaydalar

**Mingəçevir - 2025**

## Mündəricat


1. Ümumi müddəlar ..........................................................................(səh) 3
2. Psixoloji xidmətin təşkilinin məqsədi............................................(səh) 3
3. Psixoloji xidmətin təşkili...............................................................(səh) 3
4. Psixoloqun hüquq və vəzifələri.....................................................(səh) 4
5. Psixoloji yardımın konfidensiallığı və yardım alan şəxslərin hüquqları......................................................................................(səh) 4
6. Yekun müddəalar.............................................................................(səh) 5

***Təsdiq edirəm:***

***Mingəçevir Turizm Kollecinin***

***direktoru ___________ Kamal Əhmədov***

***14 fevral 2025-ci il***

## I. Ümumi müddəalar

**1.1.** MTK-da psixoloji xidmət tələbələrin əqli və fiziki inkişafının, sosial təminatının yaxşılaşdırılması, onların psixoloji vəziyyətinin, sosial-mənəvi problemlərinin öyrənilməsi və onlara psixoloji dəstəyin göstərilməsi, eləcə də mümkün psixoloji pozuntuların profilaktikası məqsədilə yaradılır.

**1.2.** Tələbələrə və əməkdaşlara psixoloji yardım “Psixoloji yardım haqqında” AR Qanununa, AR Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş “Təhsil müəssisələrində psixoloji xidmətin təşkili Qaydaları”na və mövcud mütərəqqi nəzəriyyələrə əsaslanaraq aparılır.

## II. Psixoloji xidmətin təşkilinin məqsədi

**2.1.** Psixoloji xidmətin təşkilində əsas məqsəd aşağıdakılardan ibarətdir:

**2.1.1.** Təhsilalanların akademik nailiyyətlərinin artırılması;

**2.1.2.** Təhsilalanlarda müsbət davranış modelinin formalaşdırılması;

**2.1.3.** Təhsil müəssisəsində təhlükəsiz və sağlam mühitin yaradılması;

**2.1.4.** Təhsilalanların mənəvi-psixoloji sağlamlığının dəstəklənməsi;

**2.1.5.** Ailə-təhsil müəssisəsi münasibətlərinin tənzimlənməsi.

## III. Psixoloji xidmətin təşkili

**3.1.** MTK-da psixoloji xidmətin təşkili və fəaliyyəti aşağıdakı formada həyata keçirilir:

**3.1.1.** Psixoloji maarifləndirmə;

**3.1.2.** Psixoloji müayinə və təhlil;

**3.1.3.** Psixoloji profilaktika və yardım;

**3.1.4.** Psixoloji konsultasiya və fərdi iş.

**3.2.** Əlilliyi olan, xüsusi sosial-psixoloji qrupa daxil olan tələbələrə ayrıca diqqət verilir.

**3.3.** Psixoloji xidmət, valideynlər və ya digər qanuni nümayəndələr, MTK-nin rəhbərliyi və pedaqoji işçiləri ilə əməkdaşlıq vasitəsilə təhsilalanların psixoloji vəziyyətinin, təhsil fəaliyyətinin, sosial-mənəvi problemlərinin öyrənilməsini və onlara psixoloji dəstəyin göstərilməsini, onların proqressiv psixi inkişafını, meyil, maraq və potensialının reallaşdırılmasını, habelə mümkün psixi pozuntuların profilaktikasını təmin edir.

**3.4.** Psixoloji xidmət, psixoloji yardım alan şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı əsasında göstərilir. Bu razılıq, psixoloji yardım alan şəxsin psixoloji yardımla bağlı könüllü qərar qəbul etdiyini, psixoloji yardımın məqsədini, faydasını, həcmini, müddətini və tətbiq olunan psixoloji yardım metodunu, həmçinin psixoloji yardımdan imtina və onun dayandırılması imkanı barədə ona təqdim edilmiş məlumatı başa düşməsini nəzərdə tutur. Heç kəs psixoloji yardım almağa məcbur edilə bilməz.

**3.5.** Kollecdə psixoloji müayinə, təhsilalanın ehtiyaclarını müəyyənləşdirmək məqsədilə aparılır və onların maraqları ilə ziddiyyət təşkil edə bilməz.

## IV. Psixoloqun hüquq və vəzifələri

4.1. MTK-da psixoloji xidmət peşəkar psixoloq tərəfindən həyata keçirilir.

Psixoloq –ixtisası üzrə ali təhsil almış və ya "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əlavə təhsil alma formasında psixoloq ixtisasını əldə etmiş və psixoloji yardım göstərmək hüququ olan şəxsdir;

4.2. Psixoloq kollecin rektoruna tabedir və ona hesabat verir. Psixoloji xidmət üzrə ümumi rəhbərliyi və koordinasiyanı rektor həyata keçirir;

4.3. Psixoloji yardım göstərən şəxs kollecdə psixoloji yardım göstərilməsi ilə bağlı bilavasitə tədrisi həyata keçirən müəllimi (müəllimləri), MTK-nin rəhbəri, valideynlər və digər qanuni nümayəndələr ilə əməkdaşlıq etməli, ehtiyac olduqda onlara peşəkar məsləhətlər verməlidir;

4.4. Təhsilalanın psixoloji ehtiyacları və problemləri haqqında valideynləri məlumatlandırmalı və onlara məsləhət verməli, ehtiyac olduqda onlar üçün profilaktik psixoloji tədbirlər təşkil etməlidir;

4.5. Psixoloq təhsil alanlarla yanaşı, təhsil verənlərə və kollecin əməkdaşlarına da psixoloji xidməti təmin edir;

4.6. Psixoloq kollecdaxili münasibətlərin tənzimlənməsinə yönəlmiş normativ aktların və metodik vasitələrin hazırlanmasında iştirak edir;

4.7. Psixoloq kollecdə baş verə biləcək bütün mübahisəli və münaqişəli hallarda tələbələrin mənafeyindən çıxış etməli, peşə etikasını gözləməli və ona məlum olan məsələlər üzrə konfidensiallığı qorumalıdır;

4.8. İnklüziv təhsil alan tələbələrlə görüşlər keçirilməli, onların ehtiyacları öyrənilməli və kollecin əməkdaşları ilə birgə qarşılanmalıdır.

## V. Psixoloji yardımın konfidensiallığı və yardım alan şəxslərin hüquqları

5.1. Şəxsin psixoloji vəziyyəti, psixoloji yardım almaq üçün müraciəti, təyin olunmuş psixoloji testlərin nəticələri və ona göstərilən psixoloji yardım haqqında məlumatlar konfidensial hesab edilir;

5.2. Psixoloji müayinə təhlükəsizliyi və konfidensiallığı təmin edən şəraitdə həyata keçirilməlidir;

5.3. MTK-da aparılmış psixoloji müayinənin nəticələri barədə məlumat aşağıdakı şəxslərə verilə bilər;

5.3.1. Müayinə olunan şəxsin özünə və (və ya) onun qanuni nümayəndəsinə;

5.3.2. Bilavasitə tədrisi həyata keçirən və psixoloji problemlərlə üzləşən müəllimə (müəllimlərə), eləcə də kollecin rəhbərinə;

5.4. Psixoloji müayinənin nəticələri, zərurət olduqda təhsilalanın valideynləri və ya digər qanuni nümayəndələri ilə müzakirə olunmalıdır.

## VI. Yekun müddəalar

6.1. MTK rəhbərliyi və struktur bölmələri psixoloqa öz fəaliyyətini səmərəli həyata keçirməsi üçün şərait yaradırlar.

6.2. Psixoloq öz fəaliyyəti haqqında kollecin rəhbərliyinə mütəmadi olaraq məlumat verir.

6.3. Psixoloq fəaliyyəti barədə tədris ilinin yekununda Direktora hesabat verir.

Mingəçevir Turizm Kolleci publik hüquqi şəxsi, Pedaqoji Şurasının "14" fevral 2025-ci il tarixli qərarı ilə təsdiq edilmişdir (protokol № 01).